27/28 (1334) 11-24 iyul 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymətı razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI





*İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edib.*

Dövlətimizin başçısı Məsud Pezeşkianı İran İslam Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Məsud Pezeşkian göstərilən diqqətə və təbrikə, həmçinin Prezident seçilməsi münasibətilə dövlətimizin başçısının daha əvvəl göndərdiyi məktuba görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. İran Prezidenti gələcəkdə də ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini deyib.

Söhbət zamanı ortaq dini-mədəni köklər, dostluq və qardaşlığa əsaslanan Azərbaycan-İran əlaqələrinin bundan sonra da genişlənəcəyinə və müxtəlif sahələri əhatə edən əməkdaşlığımızın inkişaf edəcəyinə əminlik ifadə olunub.

Dövlət başçıları ölkələrimiz arasında indiyədək əldə edilmiş razılaşmaların həyata keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

Telefon söhbəti əsnasında Azərbaycan və İran prezidentləri qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

## XXI ƏSR TÜRK DÜNYASININ İNKİŞAFI ƏSRİ OLMALIDIR




“Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir”.

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev iyulun 6-da Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxışında deyib.

Dövlətimizin başçısı bildirib: ***“Biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii resurslarımız, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir. Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir. XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır”.***

## AZƏRBAYCAN TÜRK DÖVLƏTLƏRİ ÜÇÜN ÖNƏMLİ TRANZİT XİDMƏTLƏRİ GÖSTƏRİR

“Şərq-Qərb nəqliyyat dəhlizinin genişləndirilməsi qarşımızda duran prioritet məsələlərdən biridir”.

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev iyulun 6-da Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxışında deyib. Orta Dəhlizin ayrılmaz bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükaşırma qabiliyyətinin Azərbaycanın əlavə sərmayəsi nəticəsində 1 milyondan 5 milyon tona çatdırıldığını vurğulayan dövlətimizin başçısı bildirib: ***“Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan Türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Artan yükdaşımalarını nəzərə alaraq, hazırda Bakı gəmiqayırma zavodunda 6 gəmi inşa edilir. Gələn il ölkəmizin 9-cu Beynəlxalq Hava Limanı Laçında istismara veriləcək. Ələt Beynəlxalq Ticarət Limanının yükötürmə qabiliyyəti 15 milyon tondan 25 milyon tona qədər genişləndiriləcək”.***

## ŞUŞADA TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ ZİRVƏ GÖRÜŞÜNDƏ QARABAĞ BƏYANNAMƏSİ İMZALANIB



İyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsinin imzalanması mərasimi olub.

Türk Dövlətləri Təşkilatının (bundan sonra TDT adlandırılacaq) “Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması” mövzusunda qeyri-rəsmi Zirvə görüşü Azərbaycan Respublikasının təşəbbüsü ilə 2024-cü il iyulun 6-da Şuşada keçirilmişdir.

Görüşə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev ev sahibliyi etmişdir. Görüşdə Qazaxıstan Respublikasının Prezidenti Zati-aliləri Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Zati-aliləri Sadır Japarov, Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri Şavkat Mirziyoyev, Türkiyə Respublikasının Vitse-prezidenti Zati-aliləri Cevdet Yılmaz, Macarıstanın Baş naziri Zati-aliləri Viktor Orban, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Zati-aliləri Ersin Tatar, eləcə də Türk Dövlətləri Təşkilatının Baş katibi Zati-aliləri Kubanıçbek Ömüralıyev iştirak etmişlər.

## BU İLİN SONUNA QƏDƏR 20 MİN İNSAN AZAD EDİLMİŞ TORPAQLARA QAYIDACAQ




“Böyük Qayıdış” Proqramının icrası çərçivəsində bu günə qədər 8 minə yaxın keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıdıb”.

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev iyulun 6-da Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxışında deyib. Dövlətimizin başçısı bildirib ki, bu ilin sonuna qədər 20 min insan azad edilmiş torpaqlara qayıdacaq.

**5 iyul 2024-cü il.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı Hava Limanında olub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində Qarabağ Universitetində görülən işlərlə tanış olub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra “Qarabağ” hotelinin açılışında iştirak edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi Konqres Mərkəzinin təməlini qoyub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra “Palace” hotelinin açılışında iştirak edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada “İsa bulağı” istirahət kompleksinin açılışında iştirak edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada Aşağı Gövhər Ağa məscidinin bərpadan sonra açılışında iştirak edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa sutəmizləyici qurğular kompleksinin açılışında iştirak edib.

* * * *

Prezident İlham Əliyev Şuşada Dövlət Xidmətləri Mərkəzinin əsaslı təmirdən sonra açılışında iştirak edib.

* * * *

Prezident İlham Əliyev Şuşada Türk Dövlətləri Təşkilatının Baş katibini qəbul edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarı qəbul edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, ölkəmizdə səfərdə olan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov iyulun 5-də Şuşada 23 binadan ibarət birinci yaşayış kompleksində və Aşağı Gövhər Ağa məscidində olub, şəhəri gəziblər.

# "Biz Bakıda keçiriləcək COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylərimizi əsirgəməyəcəyik"



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də Qazaxıstanın paytaxtı Astana şəhərində "ŞƏT plyus" formatında görüşdə çıxış edərkən deyib.

O, bildirib: *"Bu, mənim son iki ildə Qazaxıstana dördüncü səfərimdir. Həmin müddətdə Qazaxıstan Prezidenti Azərbaycana üç dəfə səfər edib və bu, ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olmasından xəbər verir.*

*Azərbaycan ikinci dəfədir ki, ŞƏT-in Zirvə toplantısına dəvət olunur. Biz bunu Azərbaycan ilə üzv dövlətlər arasında inkişaf edən tərəfdaşlığın göstəricisi kimi qiymətləndiririk.*

*Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə qarşılıqlı fəaliyyət Azərbaycan ilə ŞƏT-ə üzv dövlətlər arasında əməkdaşlığın vacib sahəsini təşkil edir. Coğrafi mövqeyi və nəqliyyat infrastrukturuna qoyulmuş böyük sərmayələr Azərbaycana Avrasiyanın nəqliyyat-logistika qovşaqlarından birinə çevrilmək imkanı verib.*

*Orta Dəhlizin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik ötürücülük qabiliyyəti Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artıb.*

*Biz tərəfdaşlarımızla Orta Dəhlizin rəqəmsallaşması üzərində işləyirik.*

*Bundan başqa, Azərbaycan Ələt Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona qədər artırmaq niyyətindədir.*

*Azərbaycan, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafında mühüm rol oynayır. Şimal-Cənub dəhlizinin Azərbaycan seqmentinin dəmir yolu və avtomobil infrastrukturu hazırdır və uğurla fəaliyyət göstərir. Hazırda biz dəmir yolu daşımalarının həcminin ildə 15 milyon tona qədər artırılması üzərində işləyirik, sonradan zərurət yaranarsa, bu rəqəm 30 milyon tona çatdırılacaq.*

*Hörmətli həmkarlar, 2023-cü ilin sentyabrında Azərbaycan beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi. Bununla da beynəlxalq hüquq və tarixi ədalət bərpa olundu. Azərbaycan Ermənistanın otuzillik işğalına son qoydu və BMT Təhlükəsizlik Şurasının otuz il kağız üzərində qalmış 4 qətnaməsinin icrasını hərbi-siyasi vasitələrlə təmin etdi.*

*Azərbaycan multilateralizmi fəal şəkildə dəstəkləyir. Biz 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurla sədrlik etdik, onun qlobal arenada nüfuzunu və gücünü möhkəmləndirdik, Hərəkatın institusional inkişafına töhfə verdik, üzv dövlətlərin dəstəyi ilə Hərəkatın Parlament Şəbəkəsini, Gənclər Təşkilatını təsis etdik, habelə Qadın Platformasının əsasını qoyduq.*

*Təxminən 200 ölkənin yekdil dəstəyi ilə Azərbaycan bu il COP29-a ev sahibliyi edəcək. Biz Bakıda keçiriləcək COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylərimizi əsirgəməyəcəyik və inkişaf etməkdə olan ölkələrin legitim maraqlarını nəzərə alacaq razılaşmanın əldə edilməsinə çalışacağıq.*

*Azərbaycanın prioritetləri sırasında həm də iqlim dəyişikliyinin mənfi təsiri səbəbindən ekzistensial təhlükə ilə üzləşən inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək yer alır. Azərbaycan inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün xüsusi texniki yardım fondunun yaradılması təşəbbüsü ilə çıxış edib.*

*Biz dünyada ən böyük beynəlxalq tədbir olan COP29-un keçirilməsinə hazırlıq istiqamətində ŞƏT ilə işi davam etdirəcəyik. Mən artıq ŞƏT-ə üzv dövlətlərin liderlərinə rəsmi dəvət məktublarını ünvanlamışam və həmkarlarımı noyabrda Bakıda görəcəyimə ümid edirəm".*

* * * *

Qeyd edək ki, "ŞƏT plyus" formatında keçirilən görüşə 16 ölkənin dövlət və hökumət başçıları qatılıb. Dövlətimizin başçısı Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ŞƏT-in sədri statusunda dəvəti ilə görüşdə iştirak edib. Xatırladaq ki, bu, Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında ikinci iştirakıdır. Bundan əvvəl Şanxay Əməkdaşlıq Təşkilatının sədri statusunda Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə dövlətimizin başçısı təşkilatın 2022-ci il sentyabrın 16-da Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirak edib. Azərbaycanın belə mötəbər təşkilatın Sammitinə ikinci dəfə dəvət olunması ölkəmizin, xüsusilə Prezident İlham Əliyevin dünya miqyasında nüfuzunun və dövlətimizin başçısına göstərilən yüksək ehtiramın ifadəsidir.

Həm ərazisinə, həm də əhalisinə görə dünyanın ən böyük ölkələrindən bir neçəsinin üzv olduğu Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Hazırda ŞƏT-in 9 üzvü (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan, İran), 3 müşahidəçi üzvü (Əfqanıstan, Monqolustan, Belarus) və 14 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Ermənistan, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Səudiyyə Ərəbistanı, Şri-Lanka) var. Xatırladaq ki, 2022-ci ilin sentyabrında Səmərqənddə keçirilən Zirvə görüşündə Belarusun bu təşkilat çərçivəsində statusunun üzv dövlət səviyyəsinə yüksəldilməsi prosesi başlanıb. Astana Sammitində Belarusun Şanxay Əməkdaşlıq Təşkilatına qoşulması barədə qərar qəbul edilib.

Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. ŞƏT ilə əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı müəyyənləşdirilib. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir.

# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin beşinci iclası keçirilib




İyulun 8-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar Təşkilat Komitəsinin beşinci iclası keçirilib.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev COP29-a hazırlıq prosesinin Prezident İlham Əliyevin daimi nəzarəti altında olduğunu qeyd edib.

Samir Nuriyev bildirib ki, Prezident İlham Əliyev iyulun 4-də keçirilmiş "Şanxay Əməkdaşlıq Təşkilatı plyus" formatında tədbirdə və iyulun 6-da Şuşada təşkil edilmiş Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Azərbaycanın COP29 zamanı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq və konsensusa nail olmaq üçün səylərini əsirgəməyəcəyini vurğulayıb. Təşkilat Komitəsinin sədri əlavə edib ki, Şuşa Zirvə görüşündə qəbul olunmuş "Qarabağ Bəyannaməsi"ndə qardaş türk dövlətləri COP29-da real nəticələrin əldə edilməsi istiqamətində Azərbaycanın ardıcıl səylərini dəstəkləyiblər.

Prezident Administrasiyasının rəhbəri bildirib ki, Azərbaycan Hökuməti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi arasında imzalanacaq "Ev Sahibi Ölkə" Sazişinin yekun mətni müvafiq dövlət qurumlarının rəyləri nəzərə alınmaqla yaxın zamanlarda hazır olacaq.

Sonra ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev çıxış edərək, COP29-la bağlı ümumi gedişat, Bonn iqlim konfransının nəticələri, COP29 komandasının xarici səfərləri barədə məlumat verib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, Xarici işlər naziri Ceyhun Bayramov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva, Fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və digərləri çıxış ediblər.

# DVX sahibkarları sadələşdirilmiş vahid bəyannamə sistemindən istifadə etməyə çağırır

İyul ayının 1-dən etibarən vergiödəyiciləri cari ilin 2-cü rübü üzrə vergi və sosial sığorta hesabatlarını təqdim edirlər. Prosesin asanlaşdırılması məqsədilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti bu sahədə vergi inzibatçılığının sadələşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirir.

Dövlət Vergi Xidmətindən verilən məlumata görə, bu tədbirlərdən biri də muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannamə sisteminin sadələşdirilmiş interfeys formasında ödəyicilərin istifadəsinə verilməsidir.

Mövzuya aydınlıq gətirən DVX-nin Sosial sığorta və əmək münasibətlərinə nəzarət idarəsinin rəisi Nigar Vahabzadə deyib: "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannamə" forması vergiödəyicilərinin inzibati yükünü azaltmaqla yanaşı, mikro və kiçik sahibkarlıq subyektlərinə xidmət mərkəzlərinə müraciət etmədən bəyannamənin rahat şəkildə təqdim olunmasına imkan verir. Vahid bəyannamə ilkin mərhələdə işçisi olmayan fiziki şəxslər tərəfindən tərtib edilir. Sadələşdirilmiş bəyannamə forması vergiödəyicilərinin uçot-baza və son bəyannamə məlumatlarına əsasən proqram təminatı tərəfindən əvvəlcədən doldurulur. Daha sonra vergiödəyicilərinə təqdim edilir.

Vahid bəyannamənin tətbiqini zəruri edən səbəblərdən biri onun mikro və kiçik sahibkarlıq subyektləri tərəfindən doldurulması zamanı bəzi çətinliklərin yaranması idi.

Belə halların aradan qaldırılması, ödəyicilərin hər dəfə xidmət mərkəzlərinə müraciət etmələri üçün inzibatçılığın mərhələli şəkildə təkmilləşdirilməsi nəticəsində bu mexanizm tətbiq olunub".

N.Vahabzadənin sözlərinə görə, "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannamə"nin sadələşdirilmiş formada onlayn tərtib olunması və göndərilməsinin tətbiqi vergiödəyicilərinə dəstək məqsədi daşıyır.

# Bu ilin 6 ayında 302 min 891 "ASAN İmza" sertifikatı verilib

Bu ilin yanvar-iyun aylarında vergiödəyicilərinə xidmət mərkəzlərində, ümumilikdə, 326 min 457 şəxs qəbul edilib, onlara 492 min 520 sayda xidmət göstərilib. Bunun 185 minə yaxını şifahi xidmətlərə (müraciət etmiş şəxslərin vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar suallarının cavablandırılması), 103 minə yaxını isə elektron xidmətlərə (bəyannamələrin və hesabatların, habelə müxtəlif ərizələrin tərtibatına və elektron formada göndərilməsinə köməklik göstərilməsi) aiddir.

Dövlət Vergi Xidmətindən verilən məlumata görə, aşağıda qeyd olunan 9 xidmət hesabat dövrü ərzində göstərilmiş ümumi (şifahi və hazır sənədlərin verilməsi ilə bağlı xidmətlər istisna olmaqla) xidmətlərin 88,1 faizini təşkil edib.

Hesabat dövründə vergiödəyicilərindən daxil olmuş 17 mindən çox yazılı müraciət cavablandırılıb, 6 milyona yaxın məlumatlandırma xarakterli müxtəlif növ bildiriş (məktub) göndərilib.

Sözügedən dövr ərzində 2 813 vergiödəyicisinin iştirakı ilə 167 görüş keçirilib, 2705 vergiödəyicisinə ünvanlı xidmət göstərilib, vergiödəyicilərinin məlumatlandırılması məqsədilə onların mobil nömrələrinə 1 milyon 282 mindən çox SMS göndərilib.

Dövr ərzində, ümumilikdə, 183 min 553 müraciət üzrə 302 min 891 "ASAN İmza" sertifikatı verilib.

# Qara Dəniz Ticarət və İnkişaf Bankının vitse-prezidenti ilə görüş keçirilib



İqtisadiyyat nazirinin müavini Anar Axundov Qara Dəniz Ticarət və İnkişaf Bankının vitse-prezidenti Draqoş-Paul Ungureanu ilə görüşüb.

Nazirlikdən bildirilib ki, görüşdə ölkəmizin də səhmdarı olduğu Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə "yaşıl" maliyyələşdirmə və investisiyalar, KOB-un inkişafı və sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, işğaldan azad edilmiş ərazilərin bərpası və bərk məişət tullantılarının idarə olunması layihələrinin maliyyələşdirilməsi kimi məsələlər nəzərdən keçirilib.

Tərəflər Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə COP29 çərçivəsində əməkdaşlıq, iqlim gündəliyinə xüsusi diqqət yetirilməklə Azərbaycanın investisiya prioritetləri, layihələrin maliyyələşdirilməsi imkanları və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# "Rəqəmsal iqtisadiyyatda qadın iştirakı" mövzusunda biznes-forum keçirilib




BMT-nin İnkişaf Proqramının (BMTİP) maliyyə dəstəyi ilə "Smart qadınlar smart icmalar yaradır" təşəbbüsü çərçivəsində Bakıda "Rəqəmsal iqtisadiyyatda qadın iştirakı" mövzusunda biznes-forum keçirilib. Azərbaycan Kənd Qadınları Assosiasiyası (AKQA) tərəfindən təşkil olunan forum Kənd Təsərrüfatı Nazirliyinin təşkilati dəstəyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin tərəfdaşlığı ilə baş tutub.

Tədbiri açan kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova bildirib ki, ölkəmizdə qadınların ən böyük məşğulluq sahələrindən biri aqrar sektordur. Aqrar sahə bölgələrdə məşğulluğun təmin olunmasında, o cümlədən qadınların gəlirlərinin formalaşmasında mühüm rol oynayır. Son illərdə kənd təsərrüfatında rəqəmsallaşmanın səviyyəsinin artdığını deyən İlhamə Qədimova rəqəmsal texnologiyalardan istifadənin bu sektorda çalışan qadınların məşğulluq səviyyəsinə və gəlirlərinin formalaşmasına əhəmiyyətli təsir göstərdiyini vurğulayıb.

VI çağırış Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədri İnarə Vəliyeva ölkəmizdə qadınların sahibkarlıq fəaliyyətində iştirakının təmin edilməsi və bacarıqlarının artırılması məqsədilə həyata keçirilən silsilə tədbirlərə toxunublar.

Tədbirdə çıxış edən natiqlər ölkədə qadın sahibkarların fəaliyyəti, bu istiqamətdə dəstək tədbirləri, əlverişli biznes mühiti və qadınların aqrar sahənin inkişafına verdikləri töhfə barədə danışıblar.

# Нефть: большое богатство, большая политика



*Материал публикуется в рамках конкурса для журналистов «Роль Государственного нефтяного фонда Азербайджанской Республики в обеспечении макроэкономической стабильности и развитии экономики страны», приуроченного к 25-летию со дня создания ГНФА и организованного Советом прессы Азербайджана и ГНФА*

*Галия АЛИЕВА*

***Важнейшей составной частью стратегии развития Азербайджана на многие десятилетия вперед будет фактор углеводородов***

25 лет - возраст небольшой. Но это если мерить цифрами. А если делами и поступками, то два с половиной десятилетия, наполненные масштабными проектами во имя национальной и экономической безопасности страны, - возраст более чем солидный. Это в полной мере относится к Государственному нефтяному фонду Азербайджана (ГНФА), который в нынешнем году отмечает свой четвертьвековой юбилей.

20 лет назад, выступая на Всемирном саммите по информационному обществу в Женеве, Президент Азербайджана Ильхам Алиев особо подчеркнул, что Государственный нефтяной фонд, созданный для защиты и надлежащего управления нефтяными доходами, для помощи в диверсификации экономики, аккумулирования средств для будущих поколений, поможет достичь главной цели - конвертировать наше «черное» золото, наши нефтяные ресурсы в реальный потенциал каждого гражданина страны.

Несомненно, такая позиция главы государства и сегодня является основополагающей при определении параметров развития Азербайджана: с каждым годом доля ГНФА в доходах госбюджета имеет тенденцию к снижению - так, в государственном бюджете 2024 года она составляет 35% против 57% в 2013 году, и 50% - в 2018-м.

***Активная модернизация нефтянки***

Все мы хорошо помним, в каких тяжелых условиях (хаос, безработица, оккупация значительной части наших территорий, разгул преступности, двойные стандарты международных структур) мы встретили первые годы нашей независимости.

С возвращением к руководству страной выдающегося государственного и политического деятеля Гейдара Алиева был взят жесткий курс на преодоление нестабильности, наведение порядка, укрепление государственности во всех звеньях.

Это и позволило вплотную заняться преодолением негативных тенденций, в том числе в экономической сфере.

В чрезвычайно сложных условиях закладывались основы экономической безопасности суверенного Азербайджана.

Безусловно, первой фундаментальной акцией стало подписание в 1994 году «Контракта века», выдвинувшее нашу страну на мировую арену в совершенно ином качестве - как независимое государство, способное самостоятельно распоряжаться своими богатейшими ресурсами во имя укрепления государственной и национальной безопасности.

За последние 25 лет в экономику Азербайджана вложено порядка $300 млрд, значительная часть которых - иностранные инвестиции. Благодаря солидной долларовой подпитке развернулась активная модернизация нефтяного сектора - ключевой отрасли всей экономики страны.

По мнению известного азербайджанского ученого, председателя Азербайджанского союза экономистов, депутата Милли Меджлиса академика НАНА Зияда Самедзаде, посвятившего макроэкономическим исследованиям Азербайджана более 50 лет, после подписания многомиллиардного контракта с консорциумом международных нефтяных компаний начался процесс превращения Азербайджана в важного участника мировой нефтяной политики.

**Ключевые слова - «прозрачно и открыто»**

«В зарубежной и местной прессе, - говорит академик Самедзаде, - высказывались различные мнения о судьбе доходов, которые поступят в страну после выхода азербайджанской нефти на мировые рынки. Подобные подходы использовались в странах, добывающих нефть и другие природные ресурсы. Азербайджанское же государство, обладающее крайне ограниченными финансовыми ресурсами, решило эффективно использовать новые возможности, которые возникнут, и поэтому сочло целесообразным организовать специальный фонд».

И такой фонд был создан Указом Президента Азербайджана Гейдара Алиева 22 декабря 1999 года. В задачи новой структуры входило управление доходами от реализации прибыльной нефти, полученной от совместной разработки месторождений страны с иностранными компаниями, а также трансфер этих средств на реализацию проектов, имеющих важное социально-экономическое значение.

Примечательны слова Ильхама Алиева о целевом использовании доходов: «Нефть - это большое богатство. В то же время это большая головная боль. Как мы воспользуемся этим богатством, будет зависеть только от нас. Нефтяной фонд был создан по инициативе общенационального лидера Гейдара Алиева, который прозорливо видел перспективу. Если бы фонд не был создан, Бог знает, где были бы собранные там $90 млн. Именно для того, чтобы деньги народа, его сбережения хранились прозрачно и открыто, а сама структура служила развитию страны и ее будущих поколений, и был создан ГНФА. Динамика развития дальнейших событий показала, что все намеченные планы нашли отражение в жизни».

Именно эти два слова - «прозрачно и открыто», сказанные главой нашего государства, и стали ключевыми в дальнейшей деятельности новой структуры, приобретя высокий государственный статус среди других приоритетных задач. И свидетелями того, как используются средства, полученные от продажи нефти, кроме наших экспертов, стали влиятельные международные организации, в центре внимания которых наше государство находится уже не одно десятилетие.

**Масштабность проектов**

Азербайджан присоединился к международной инициативе прозрачности, выдвинутой Великобританией по прозрачности доходов от нефтедобывающей отрасли - международные эксперты констатируют: по уровню прозрачности наша страна в списке лидеров, система управления ГНФА в ней сформирована в соответствии с международными стандартами.

***- Зияд муаллим, из мировой практики известно, что некоторые страны, богатые нефтью, допустили в использовании доходов от нее серьезные просчеты, не обеспечив должную прозрачность расходования средств, отодвинув на задний план развитие не связанных с нефтью отраслей. Какие страны вы назвали бы в первую очередь?***

- Прежде всего, богатую нефтью Нигерию, растратившую четверть триллиона долларов нефтяных доходов и сейчас имеющую огромные долги. Кроме того, гражданские войны, развязанные вследствие борьбы за контроль над нефтью, газом и минералами, разорили целый ряд наделенных ресурсами стран. Огромные доходы от нефти не принесли их народам процветания, а стали лишь источником коррупции.

***- Назовите, пожалуйста, самые масштабные проекты Азербайджана, которые были реализованы на средства Госнефтефонда?***

- В первую очередь была укреплена национальная безопасность страны, сформирован достаточный финансовый потенциал для устойчивого развития экономики, создан механизм сохранения его части для будущих поколений.

Кроме того, за счет ГНФА был проведен водопровод Баку-Огуз-Габала, реконструирована Самур-Абшеронская ирригационная система, построены Тахтакерпюское водохранилище, каналы Тахтакерпю-Джейранбатан и Валвалачай-Тахтакерпю, ирригационные сооружения и транспортные каналы на реках северного региона Азербайджана и т.д. На рабочий проект и тендерную документацию из нефтяного фонда на финансирование работ, проводимых в рамках его подготовки, было выделено 1 069,4 млн манатов.

Нельзя не отметить и один из проектов, финансируемых фондом, - строительство и ввод в эксплуатацию транспортного коридора Баку-Тбилиси-Карс. В течение 2007-2018 гг. на его финансирование было выделено $745,9 млн, в рамках проекта осуществляется строительство железнодорожной линии Ахалкалаки-Карс протяженностью 76 км в Турции и 26 км в Грузии, совместное строительство железнодорожного вокзала в Ахалкалаки, а также реабилитация и реконструкция 160-километровой железнодорожной линии, проведена дорога Марабда-Ахалкалаки (Грузия).

***Сохраняя оптимальные соотношения***

***- Исчезли палаточные городки для беженцев, наша молодежь получила возможность учиться в престижных научно-образовательных центрах Запада. И это ведь тоже заслуга нефтяного фонда?***

- Безусловно. Реализацию проектов, связанных с улучшением социальных условий беженцев и вынужденных переселенцев, а также финансированием расходов на образование молодежи, обучающейся за рубежом в рамках госпрограммы (2007-2019 гг.), также осуществлял ГНФА.

***- Одним словом, сбалансированное распределение доходов нефтяного фонда стало гарантией развития Азербайджана?***

- Совершенно верно. Использование части этих средств для решения наиболее актуальных экономических и социальных вопросов, а также сохранение значительной части этих средств в качестве стратегического резерва для будущих поколений стало важнейшей гарантией динамичного и качественного развития страны, ведь трансферты из ГНФА в госбюджет обеспечили значительную поддержку реализации стратегических проектов социально-экономического развития. Таким образом, слаженная деятельность нефтяного фонда еще раз доказала, что экономика Азербайджана, прежде всего нефтяной сектор, включилась в международную деловую жизнь, а нефтяная стратегия создала прочную основу для политической стабильности и укрепления национального государственного строительства.

***- Но ведь ГНФА был создан также для решения стратегических проблем и в ненефтяном секторе, верно?***

- Абсолютно. Об этом как раз свидетельствует доля ненефтяного сектора в структуре ВВП, которая обрела тенденцию к росту. Этот же процесс наблюдается и в структуре инвестиций, увеличивается доля ненефтяного сектора и в формировании доходной части бюджета. Все это позитивные тенденции, однако, этого пока недостаточно. Именно поэтому наш Президент акцентирует внимание на ускорении развития ненефтяного сектора как на стратегически важной проблеме. Интересную мысль он высказал, обращаясь к членам правительства еще в 2004 году: ***«Мы должны так вести нашу политику, словно в Азербайджане нет нефти. Необходимо развивать инфраструктуру во всех областях экономики и, в первую очередь, в ненефтяном секторе. Только таким путем мы сможем превратить Азербайджан во всесторонне развитое государство».***

Это заявление не нуждается в особых комментариях. Могу только отметить, что по своим масштабам и содержанию это направление будет считаться приоритетом в стратегии развития еще очень долго. Поэтому наш научный и интеллектуальный потенциал должен быть сосредоточен на исследовании этих проблем, открывающих новые горизонты и просчитывающих комплексные варианты развития страны в условиях глобализации. А создание ГНФА, выбор продуманной стратегии использования его средств, сохранение оптимальных соотношений золотовалютных резервов и ВВП имеют принципиальное, я бы сказал, решающее значение для нашей страны. И об этом красноречиво свидетельствуют цифры: если в начале создания фонда его средства составляли $90 млн, то сейчас в нем - порядка $ 60 млрд.

**www:br.az**

# В Карабахском университете идет подготовка к новому учебному году

В 2024/2025 учебном году в Карабахском университете планируется обучение 1120 студентов по 27 специальностям. Об этом сказал журналистам ректор Карабахского университета Шахин Байрамов.

По его словам, одной из главных целей является возвращение традиций высшего образования на освобожденные территории. "Поставленная цель заключается в том, что Карабахский университет должен стать одним из самых современных высших учебных заведений нашей страны. 5 июля Президент Ильхам Алиев посетил наш университет и поинтересовался ходом проводимой работы, дал соответствующие рекомендации и поручения. Мы также получили от главы государства соответствующие поручения относительно работы, которую будем проводить в связи с будущим Карабахского университета", - отметил ректор.

Ш.Байрамов подчеркнул, что Карабахский университет станет самым современным высшим учебным заведением.

"Наш университет будет осуществлять подготовку современных высококвалифицированных кадров, необходимых в первую очередь для социально-экономического развития Азербайджана, а также он станет научно-исследовательским университетом. Это означает, что наш университет внесет свой вклад в развитие Азербайджана на следующем этапе", - сказал он.

Ректор также отметил, что идет подготовка к новому учебному году.

Ш.Байрамов добавил, что в следующем учебном году прием суббакалавров и перевод студентов в Карабахский университет не планируются.



# «Alliance Business Centre» QSC-nin 31 dekabr 2023-cü il tarixinə BALANS HESABATI

| QALIQLAR | 31.12.2023 | 31.12.2022 |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| *Uzunmüddətli aktivlər* | | |
| Binalar, tikillilar va qurğular | 1 504 078,97 | 203 875,24 |
| Maşınlar va avadanlıq | 26 608,16 | 35 628,67 |
| Nəqliyyat vasitələri | - | - |
| Digər əsas vəsaitlər | - | - |
| Qeyri-maddi aktivlər | - | - |
| **Cəmi** | **1 530 687,13** | **239 503,91** |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **-** | **-** |
| 1.3.1 Hazır mahsul | - | - |
| 1.3.2 Mallar | - | - |
| 1.3.3 Bitmamiş istehsal | - | - |
| 1.3.4 Sair ehtiyatlar | - | - |
| **Debitor borclar** | **141 385,19** | **170 402,74** |
| 1.4.1 Dövlət büdcəsinə (vergilər üzrə) | 135 002,88 | 166 531,58 |
| 1.4.2 Sair debitor borclar | 6 382,31 | 3 871,16 |
| 1.4.2.1 o cümladan xarici borclar | | - |
| **Pul vəsaitləri** | **82 683,63** | **105 344,33** |
| **Səhmlər va iştirak payları üzra maliyyə qoyuluşları** | **-** | **-** |
| **Dövlət qiymətli kağızları** | **-** | **-** |
| **Kapitallaşdırma üçün aktivlar** | **-** | **1 027 875,58** |
| **Gələcək dövrün xərcləri** | **3 179,50** | **-** |
| **Digər aktivlər** | **154 524,62** | **164 022,66** |
| **Cəmi** | **381 772,94** | **1 467 645,31** |
| **CƏMİ AKTİVLƏR** | **1 912 460,07** | **1 707 149,22** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 394 898,40 | 394 898,40 |
| Hesabat dövrünün xalis mənfəəti | 80 479,79 | 38 331,42 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 52 138,84 | 13 807,42 |
| Emissiya galiri | - | - |
| Kapital ehtiyatları | - | - |
| **CƏMİ KAPİTAL** | **527 517,03** | **447 037,24** |
| **ÖHDƏLİKLƏR** | | |
| Bank kreditlari | - | - |
| o cümlədən, xarici borclar | - | - |
| Alınmış avanslar | 9 609,04 | 21,98 |
| Dövlət büdcəsinə vergi öhdəlikləri | 0,00 | 0,00 |
| Törəmə (asılı) müəssisələrə kreditor borcları | - | - |
| Sair kreditor borcları | 334,00 | 90,00 |
| o cümlədən, xarici borclar | - | - |
| **Gələcək dövrün gəlirləri** | **-** | **-** |
| **Digər öhdəliklər** | **1 375 000,00** | **1 260 000,00** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **1 384 943,04** | **1 260 111,98** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **1 912 460,07** | **1 707 149,22** |

| MƏNFƏƏT VƏ ZƏRƏR HESABATI | 31.12.2023 | 31.12.2022 |
|---|---|---|
| **Qalıqlar** | **Məbləğ, manatla** | **Məbləğ, manatla** |
| Əsas əməliyyat gəlirləri | 463 536,26 | 259 222,72 |
| Satışın maya dəyəri | 194 260,68 | 184 690,52 |
| **Ümumi Mənfəət** | **269 275,58** | **74 532,20** |
| Sair əməliyyat gəlirləri | **88,36** | **2 148,69** |
| İnzibati xərclər | 22 641,82 | 646,78 |
| Əməliyyat mənfəəti(zərəri) | 246 633,76 | 76 034,11 |
| Maliyyə gəlirləri | | 0,00 |
| Maliyyə xərcləri | | 0,00 |
| Fövqəladə gəlirlər | | 0,00 |
| Fövqəladə gəlirlər | | 0,00 |
| Amortizasiya ayırmaları, əsas vəsaitlərin təqdim edilməsi və ləğvi üzrə gəlirdən çıxılan xərclər | 125 004,79 | 17 543,76 |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 8 939,08 | 2 570,88 |
| Sair xərclər | 11 734,73 | 8 005,20 |
| Vergitutmadan əvvəl mənfəət (zərər) | **100 955,16** | **47 914,27** |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | | |
| Mənfəət üzrə azadolma, güzəşt və mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri çıxılmaqla vergiyə cəlb olunan mənfəət | **100 955,16** | **47 914,27** |
| Mənfəət vergisi | 20 191,03 | 9 582,85 |
| Hesabat dövründə xalis mənfəət | **80 764,13** | **38 331,42** |
| **Mənfəətdə iştirak payı:** | | |
| Səhmdarların payı | 0,51 | 0,24 |
| Azlıqların payı | | |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | |
| 1(bir) səhmin əsas mənfəəti | 0,41 | 0,19 |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI**

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **01 yanvar 2022-ci il tarixə qalıq** | **394 898,40** | **29 144,35** | **424 042,75** |
| 2022-ci il üzrə xalis mənfəət | | 38 331,00 | 38 311,00 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | - |
| Elan edilmiş dividendlər | | | - |
| Maddələr arasında köçürmələr | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | - 15 336,51 | - 15 336,51 |
| **01 yanvar 2023-cü il tarixə qalıq** | **394 898,40** | **52 138,84** | **447 037,24** |
| 2023-cü il üzrə xalis mənfəət | | 80 479,79 | 80 479,79 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | - |
| Elan edilmiş dividendlər | | - | - |
| Maddələr arasında köçürmələr | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | | - |
| **01 yanvar 2024-ci il tarixə qalıq** | **394 898,40** | **132 618,63** | **527 517,03** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | **2023-cü il** | **2022-ci il** |
|---|---|---|
| Hesabat dövründə mənfəət /zərər | 100 955,16 | 47 914,27 |
| Mənfəət vergisi üzrə xərclər | - 20 191,03 | - 9 582,85 |
| **Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər:** | | |
| Əsas vəsaitlərin amortizasiyası | 125 004,79 | 17 543,76 |
| · Qeyri-maddi aktivlərin amortizasiyası | | |
| · Əsas vəsaitlərin satışından və xaricolmasından gəlirlər/zərərlər | | |
| **Dövriyyə kapitalında dəyişikliklər:** | | |
| · Ehtiyatlar üzrə artma/azalma | - | - |
| · Əməliyyat debitor borclarında artma/azalma | 29 017,55 | - 153 057,61 |
| · Sair qısamüddətli aktivlərdə artma/azalma | - 9 498,04 | 10 921,58 |
| · Sair maliyyə aktivləri | | |
| · Cari vergi öhdəlikləri | - 0,00 | - 4 634,59 |
| · Əməliyyat kreditor borclarında artma/azalma | 244,00 | 90,00 |
| · Sair qısamüddətli öhdəliklərdə artma/azalma | 115 000,00 | 1 260 000,00 |
| Əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **340 532,43** | **1 169 194,56** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | - | - |
| Əsas vəsaitlərin alınması | | |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla, uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən, kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları, uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | | |
| Səhm alınması üçün pul vəsaitinin xaric olması | | |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | - | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **-** | **-** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Səhm buraxılışı | | |
| Kapital ehtiyatlarının dəyişməsi | | |
| Təsisçilərin borcunun bölüşdürülməmiş mənfəət hesabına əvəzləşdirilməsi | | |
| Mənfəətin istifadəsi | | |
| Dividendlər və buna oxşar ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | | |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | 340 532,43 | 1 169 194,56 |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **105 344,33** | **1 183,06** |
| **İl ərzində pul vəsaitlərinin və onların ekvivalentlərinin artması (azalması)** | 340 532,43 | 1 169 194,56 |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **82 683,63** | **105 344,33** |

# “AzerGold” QSC hasilatın pay bölgüsü haqqında Saziş üzrə səlahiyyətlərinin icrasına başlayıb




Məlum olduğu kimi, Milli Məclis tərəfindən ratifikasiya olunan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 21 iyun 2024-cü il tarixində təsdiq edilən Qanuna əsasən, Gədəbəy, Qoşa, Xarxar, Qaradağ, Ordubad qrupu (Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Qızılbulaq, Dəmirli və Vejnəli qızıl, mis və polimetal perspektiv filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Amerika Birləşmiş Ştatlarının R.V. Investment Group Services, LLC arasında bağlanmış Sazişin həyata keçirilməsi ilə əlaqədar dövləti təmsil etmək səlahiyyəti “AzerGold” QSC-yə ötürülüb.

Məqsəd Saziş üzrə işlərin icrasında R.V. Investment Group Services, LLC ilə dağ-mədən sahəsində ixtisaslaşmış dövlət şirkəti arasında səmərəli əməkdaşlığın təmin edilməsidir. Sazişin şərtlərinə əsasən, “AzerGold” QSC R.V. Investment Group Services, LLC-yə hüquq və mənafelər vermək, fəaliyyətin səmərəli təşkil edilməsinə nəzarət etmək, mədən-filiz əməliyyatlarının həyata keçirilməsi üçün hökumət orqanları ilə əməkdaşlığı təmin etmək və digər öhdəlikləri daşıyır.

Saziş sahələrində mədənlərin idarə olunması, geoloji kəşfiyyat, hasilat, istehsalat, həmçinin ətraf mühitin mühafizəsi, yerli icmalarla işin təşkili, korporativ sosial məsuliyyət və digər istiqamətlərdə R.V. Investment Group Services, LLC tərəfindən fəaliyyət “AzerGold” QSC-nin nəzarəti ilə icra ediləcək: “AzerGold” QSC operator şirkətin dağ-mədən fəaliyyətinin yerli və beynəlxalq qanunvericiliyin tələblərinə uyğun icrasını təmin edəcək.

Artıq QSC tərəfindən Sazişdən irəli gələn məsələlərin həlli, fəaliyyətin operativ təşkili, müxtəlif fəaliyyət istiqamətlərində Sazişin tələblərinin müəyyən edilməsi məqsədilə işlərə başlanılıb. Belə ki, qeyd edilən məqsədlər nəzərə alınaraq “AzerGold” QSC-nin nəzdində yaradılan İşçi qrupa bir ay müddətində fəaliyyətin təşkil edildiyi sahələrə, o cümlədən infrastruktura ümumi baxışın keçirilməsi, Saziş çərçivəsində görülən işlərin və mövcud vəziyyətin təhlil edilməsi, görülməsi zəruri olan tədbirlərin müəyyən edilməsi və təkliflərin formalaşdırılması tapşırılıb. Eyni zamanda fəaliyyət və nəzarətin təşkili məqsədilə Rəhbər Komitənin yaradılması üzrə müvafiq işlər icra edilir.

Qeyd edək ki, Saziş 20 avqust 1997-ci il tarixində Azərbaycan Respublikasının “Azərqızıl” Dövlət Şirkəti ilə R.V. Investment Group Services, LLC arasında bağlanılmışdır. 22 yanvar 2000-ci il tarixindən Sazişə yeni dəyişikliyə qədər “Azərqızıl” dövlət şirkətinin ləğv edilməsi nəticəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi Sazişdən irəli gələn öhdəliklər üzrə “Azərqızıl” dövlət şirkətinin hüquqi varisi hesab edilmişdir.

# Bakıda “ŞƏT Nümayiş Zonası - Azərbaycanda logistika və ticarətin təşviqi” konfransı keçirilib



Bakıda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO Çin-Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Yerli İqtisadi və Ticarət Əməkdaşlığı Nümayiş Zonasının (SCODA) İnzibati Komitəsinin birgə təşkilatçılığı, Çinin Azərbaycandakı səfirliyi, Azərbaycanın Çindəki səfirliyində ticarət nümayəndəsi Aparatının dəstəyi ilə “ŞƏT Nümayiş Zonası - Azərbaycanda logistika və ticarətin təşviqi” konfransı keçirilib. Tədbirdə hər iki ölkədən rəsmilərlə yanaşı, ticarət, logistika və turizm sektorlarından şirkətlərin nümayəndələri də iştirak ediblər.

Konfransda çıxış edən Çinin Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Dinq Tao bildirib ki, Azərbaycan-Çin ikitərəfli münasibətləri əhəmiyyətli dərəcədə möhkəmlənib, iqtisadi tərəfdaşlıq isə müxtəlif sahələrdə qarşılıqlı maraqlar nəticəsində genişlənib.

AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev ölkələrimiz arasında iqtisadi-ticarət əməkdaşlığı haqqında danışıb. Bildirilib ki, Azərbaycanın Çində 6 ticarət evi fəaliyyət göstərir, ölkələrimiz qlobal nəqliyyat infrastrukturu təşəbbüslərində birgə iştirak edir, sənaye və avtomobil istehsalı sahələrində isə ortaq layihələr reallaşdırırlar.

Tədbirdə Çin Kommunist Partiyasının İşçi Komitəsi katibinin müavini və SCODA İnzibati Komitəsinin icraçı direktorunun müavini Li Qanq SCODA-nın Azərbaycan ilə beynəlxalq ticarət sərgilərində birgə fəaliyyətini vurğulayaraq, qurumun ölkəmizin bir sıra təşkilatları ilə mühüm razılaşmalar imzaladığını diqqətə çatdırıb.

# “Azərbaycan regional logistika mərkəzinə çevrilib”

Limanlar, avtomobil yolları və dəmir yolları da daxil olmaqla infrastruktura geniş sərmayə qoyuluşu ilə Azərbaycan regional logistika mərkəzinə çevrilib.

Bu barədə KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov Bakıda keçirilən "ŞƏT Nümayiş Zonası - Azərbaycanda Logistika və Ticarətin Təşviqi Konfransı"nda deyib.




O bildirib ki, tarixən Böyük İpək Yolu ilə bağlı olan Azərbaycan ilə Çin arasında son illər əməkdaşlıq yeni istiqamət alıb və Çinin “Bir kəmər bir yol” təşəbbüsü bu müstəvidə xüsusi rol oynayır: "Dünyanın ən iri layihələrindən biri sayılan Bakı-Tbilisi-Qars dəmir yolu Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin etməklə, qədim İpək Yolunun bərpasına öz töfvəsini verməkdədir. Bu dəmir yolu Çin, Cənub-Şərqi Asiya, Avropa və onun hüdudlarından kənarda yüklərin tranzitini asanlaşdıran tarixi İpək Yolu təşəbbüsünün mühüm tərkib hissəsi kimi xidmət edir. Üstəlik, bizim baxışımız, sadəcə, tranzitdən kənara çıxır, biz iqtisadi artım və əməkdaşlığa təkan verməkf üçün coğrafi üstünlüklərimizdən istifadə edərək, Azərbaycanı logistik mərkəzə çevirməyi hədəfləyirik. Nəqliyyat-tranzit sahəsində planlaşdırılan bu kimi yeni yollar kommunikasiyalarımızı daha sıx birləşdirməklə, ölkələrimizin sahibkarlıq subyektləri arasında da əlaqə və münasibətlərin genişləndirilməsinə imkan verir".

# “Çin 1995-2023-cü illərdə Azərbaycana 930,8 milyon dollar investisiya yatırıb”

Bu barədə AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev Bakıda keçirilən "ŞƏT Nümayiş Zonası - Azərbaycanda Logistika və Ticarətin Təşviqi Konfransı"nda deyib.

O bildirib ki, bu məbləğin 754,1 milyon dolları neft-qaz, 176,7 milyon dolları isə qeyri-neft-qaz sektoruna qoyulub.



# Turizm sektorunun ölkə iqtisadiyyatında payı pandemiyadan əvvəlki səviyyəyə çatıb

2023-cü ildə Azərbaycan 2.1 milyon xarici ziyarətçi qəbul edib. Cari ilin ilk 6 ayında isə ölkəmizə 1.2 milyon əcnəbi gəlib, bu da keçən ilin eyni dövrü ilə müqayisədə 34 faiz artım deməkdir.

Bu barədə Azərbaycan Dövlət Turizm Agentliyinin turizm siyasəti və strategiyası şöbəsinin müdiri Məhəmməd Muradov Bakıda keçirilən "ŞƏT Nümayiş Zonası - Azərbaycanda Logistika və Ticarətin Təşviqi Konfransı"nda deyib.

O bildirib ki, daxili turizm 2022-ci ildə bərpa olunub və 5.2 milyon ölkə vətəndaşı ölkə daxilində turizm məqsədli səfərlər edib, bu da 2019-cu il səviyyəsindən 20 faiz çoxdur. 2023-cü ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda 2.7 milyard manat ÜDM istehsal olunub ki, bu da 2022-ci illə müqayisədə 22 faiz artım deməkdir.

Ümumilikdə, turizm sektorunun iqtisadiyyatda payı pandemiyadan əvvəlki səviyyəyə, yəni 2.4 faizə çatıb.

# «KAPİTAL SECURİTY» QSC-nin 31 dekabr 2023-cü il tarixinə BALANS HESABATI

| AKTİVLƏR | Qeyd | 31 dekabr 2023-ci il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Əmlak və avadanlıqlar (Əsas vəsaitlər) | 7 | 123 860,80 | 104 856,14 |
| Qeyri-maddi aktivlər | 8 | 2 106,00 | 2 340,00 |
| Verilmiş borclar | | | |
| Uçota alınmış investisiyalar | | | |
| Təxirə salınmış vergi aktivləri | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **125 966,80** | **107 196,14** |
| ***Qısamüddətli aktivlər*** | | | |
| Ehtiyatlar | 10 | 23 691,06 | 26 136,33 |
| Qısamüddətli debitor borcları | 11 | 283 248,94 | 148 578,03 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 14 | 467 118,35 | 284 524,28 |
| Digər aktivlər | 12 | 25 048,23 | 12 119,60 |
| Sair qısamüddətli aktivlər | | | |
| Gələcək dövrün xərcləri | 12 | 7 800,00 | 42 027,92 |
| Sair qısamüddətli Maliyyə aktivləri | | | |
| **Cəmi qısamüddətli aktivlər** | | **806 906,58** | **513 386,16** |
| **CƏMİ AKTİVLƏR** | | **932 873,38** | **620 582,30** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| Nizamnamə kapitalı | 20 | 2 000,00 | 2 000,00 |
| Kapital ehtiyatları | | | |
| Hesabat dövrünün bölüşdürülməmiş xalis mənfəəti /zərəri | 30 | 209 303,43 | 78 849,24 |
| Əvvəlki illərin bölüşdürülməmiş xalis mənfəəti /zərəri | | 109 179,59 | 30 330,35 |
| **CƏMİ KAPİTAL** | | **320 483,02** | **111 179,59** |
| **Öhdəliklər** | | | |
| Uzunmüddətli öhdəliklər | 19 | 346 000,00 | 346 000,00 |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | | 43 574,69 | 22 664,45 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **389 574,69** | **368 664,45** |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 16 | 20 593,84 | |
| Qısamüddətli borclar (alınmış avanslar) | | | |
| Qısamüdətli kreditor borcları | 18 | 13 897,81 | 52 323,87 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 17 | 188 324,02 | 88 414,39 |
| Sair qısamüdətli öhdəliklər | | | |
| **Cəmi qısa müddətli öhdəliklər** | | **222 815,67** | **140 738,26** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **612 390,36** | **509 402,71** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **932 873,38** | **620 582,30** |

**MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT**

| | Qeyd | 31 dekabr 2023-ci il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 21 | 5 013 795,30 | 2 094 480,64 |
| Satışın maya dəyəri | 25 | -4 733 128,33 | -1 978 635,05 |
| **Ümumi mənfəət (zərər)** | | **280 666,97** | **115 845,59** |
| Daşınmaz əmlakın icarəsindən gəlirləri | | | |
| Kommersiya xərcləri | | | |
| İnzibati xərclər | 26 | -14 315,28 | -13 407,81 |
| Sair əməliyyat xərcləri | | | |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **266 351,69** | **102 437,78** |
| Maliyyə gəlirləri | | | |
| Maliyyə xərcləri | | | |
| Fövqəladə gəlirlər | | | |
| Fövqəladə xərclər | | | |
| Vergidən azad olan gəlirlər üzrə xərclər | | | |
| Vergidən azad olan gəlirlər | | | |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 26 | -1 143,58 | -524,28 |
| Məzənnə fərqi | | | |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **265 208,11** | **101 913,50** |
| Keçmiş illərin zərərinə silinir | | - | - |
| Mənfəət üzrə azadolmalar və güzəştlər | | | - |
| Vergidən azad olan gəlirlər | | - | - |
| **Vergiyə cəlb olunan mənfəət** | | **265 208,11** | **101 913,50** |
| Mənfəət vergisi xərci | 29 | -55 904,68 | -23 064,26 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 30 | **209 303,43** | **78 849,24** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| **Səhmdarların payı** | | 1 326,04 | 509,57 |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | | |
| **Bir səhmin əsas mənfəəti** | 30 | 1 046,52 | 394,25 |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA**

| | Qeyd | Nizamnamə Kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **31 dekabr 2021-ci il tarixə qalıq** | | **100,00** | **-** | **30 330,35** | **30 430,35** |
| 2022-ci il üzrə xalis mənfəət | 30 | | | **78 849,24** | **78 849,24** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 20 | **1 900,00** | | | **1 900,00** |
| Elan edilmiş dividendlər | | | | | **-** |
| Maddələr arasında köçürmələr | | | | | **-** |
| **31 dekabr 2022-ci il tarixə qalıq** | | **2 000,00** | **-** | **109 179,59** | **111 179,59** |
| 2023-cü il üzrə xalis mənfəət | 30 | | | **209 303,43** | **209 303,43** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | **-** |
| Elan edilmiş dividendlər | | | | | **-** |
| Maddələr arasında köçürmələr | | | | | **-** |
| **31 dekabr 2023-cü il tarixə qalıq** | | **2 000,00** | **-** | **318 483,02** | **320 483,02** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA**

| | Qeyd | 31 dekabr 2023-ci il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət /zərər | | 265 208,11 | 101 913,50 |
| Mənfəət vergisi üzrə xərclər | 29 | -55 904,68 | -23 064,26 |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| Əsas vəsaitlərin amortizasiyası | 26 | 74 900,83 | 240,71 |
| Əsas vəsaitlərin satışından və xaric olmasından gəlirlər/zərərlər | | | - |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 8 | 234,00 | 260,00 |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər | | | |
| Ehtiyatlar üzrə artma/azalma | 10 | 2 445,26 | -18 388,64 |
| Debitor borcları üzrə artma/azalma | 11 | -134 670,91 | -98 193,73 |
| Sair qısamüddətli maliyyə aktivləri üzrə artma/azalma | | | |
| Digər aktivlərdə | 12 | -12 928,63 | -6 200,80 |
| Sair qısamüddətli aktivləri üzrə artma/azalma | | | |
| Alınmış avanslar üzrə artma/azalma | | | |
| Cari vergi və sosial sığorta öhdəlikləri üzrə artma/azalma | 17 | 120 819,87 | 50 216,06 |
| Əməliyyat kreditor borcları və hesablaşmalar | | | |
| Sair qısamüddətli kreditor borcları | 18 | -38 426,06 | 37 929,31 |
| Sair uzunmüddətli öhdəliklər | 19 | - | 282 000,00 |
| Maddələr arasında baş vermiş dəyişikliklər | | | |
| Mənfəət vergisi ödənilmişdir | | | |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **221 677,79** | **326 712,15** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | 7 | -59 677,56 | -122 799,34 |
| Qeyri-maddi aktivlərin alınması | 8 | - | -2 600,00 |
| Uzunmüddətli kapital qoyuluşları | | | |
| Xaric olmuş əsas vəsaitlərin qalıq dəyəri | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **-59 677,56** | **-125 399,34** |
| ***Məzənnə fərqi*** | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | 16 | 20 593,84 | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına yaranan pul vəsaitlərinin xaricolmaları | | | |
| Səhm buraxılışı | 20 | - | 1 900,00 |
| Kapital ehtiyatlarının dəyişməsi (Bölünmə balansına əsasən əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət) | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin daxilolmalar | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaric olmaları | | - | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **20 593,84** | **1 900,00** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)** | | **182 594,07** | **203 212,81** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | 12 | **284 524,28** | **81 311,47** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | 12 | **467 118,35** | **284 524,28** |
| **İl ərzində artım/azalma** | | **182 594,07** | **203 212,81** |

AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI 1995

**SƏRBƏST AUDİTOR** **İNDEPENDENT AUDİTOR**

Azərbaycan Respublikası, AZ1130
Bakı şəhəri, Ə. Naxçıvani küç. 24A/23
VÖEN: 1005147262
Audit icazəsi: SA/387

24A/23 A. Nahchivani street
AZ1130, Baku Azerbaijan
TAX ID: 1005147262
Audit License: SA/387

Phone: 070 338 6727
Phone: 050 338 6727
email: aliyev.n2012@gmail.com

**Müstəqil Auditorun Maliyyə Hesabatlarının Auditinə Dair Hesabatı**

**"KAPİTAL SECURİTY" Qapalı Səhmdar Cəmiyyətinin Rəhbərliyinə**

**Rəy**

Mən "KAPİTAL SECURİTY" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra - şirkət) 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, qoşma maliyyə hesabatları Şirkətın 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsinin" (IESBA) tələblərinə uyğun olaraq Şirkətdən asılı deyiləm və mən digər etik öhdəliklərimizi IESBA məcəlləsinin tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının İFRS (Beynəlxalq Maliyyə Hesabatları Standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkətı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edirəm və peşəkar inamsızlıq nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirirəm, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndirirəm.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edimesinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrim auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığım zaman daxili nəzarətdə aşkar etdiyim əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.

Şirkətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmış şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatında təsvir edirəm.

**Sərbəst Auditor**

**Əliyev Natiq Firuddin oğlu**

**Bakı şəhəri, Azərbaycan Respublikası**

**30 may, 2024-cü il.**

Azərbaycan Respublikası Auditorlar Palatası · Əliyev Natiq Firuddin oğlu · Sərbəst auditor · VÖEN/TAX.ID 1005147262 · Independent auditor · Chamber of Auditors of Azerbaijan Republic

# "PAŞA Kapital" kapital bazarları üzrə cari ilin II rübündə də lider mövqeyini qoruyur

10 ildən artıq fəaliyyət dövrü ərzində ölkənin kapital bazarlarının inkişafına mühüm töhfə verən "PAŞA Kapital" bu ilin II rübünün nəticələrinə əsasən yenə də bazarın lideri olaraq mövqeyini qorumaqdadır. Belə ki, şirkət həm dövriyyə həcmi, həm də qiymətli kağızlar bazarının sabit gəlirli maliyyə alətlərinin əksər seqmentləri üzrə ilk pillədə qərarlaşıb.

Bakı Fond Birjası tərəfindən 2024-cü ilin iyun ayı üzrə açıqlanan hesabata əsasən, "PAŞA Kapital" 14 milyard 087 milyon manatdan artıq dövriyyə həcmi ilə Azərbaycan bazarının ən iri investisiya şirkəti olaraq mövqeyini daha da gücləndirib. Həmçinin hesabat dövrü ərzində şirkət Mərkəzi Bankın notları, Dövlət istiqrazları, Repo bazarları üzrə aparılan əməliyyatların həcminə görə yerli bazarın lideri kimi fərqləndirilib.

Kapital bazarları üzrə fəaliyyətini uğurla davam etdirən "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-nin ötən ilin müvafiq dövrü ilə müqayisədə repo əməliyyatları üzrə ticarət həcmində 196%, Mərkəzi Bankın notları üzrə 6.5% və Maliyyə Nazirliyinin istiqrazları üzrə isə 47% artım qeydə alınıb. Həmçinin, korporativ istiqrazların dövriyyəsi sözügedən dövrü üzrə 721 milyon manat təşkil etmişdir, bu da öz növbəsində 175% artım deməkdir.

Onu da qeyd edək ki, şirkətin ümumi dövriyyə həcmi keçən ilin iyun ayı ilə müqayisədə 126% çoxdur.

# "Azərbaycan yaşıl enerji koridorları mövzusunda dünyada lider olan ölkələrin sırasında yer alır"

"Bakı Yay Enerji Məktəbinin əsas məqsədi Azərbaycanın enerji inqilablarında ön sıralarda yer almasıdır. Enerji məsələsi araşdırılacaqsa, öyrəniləcəksə, gediləcək ilk yer Azərbaycandır. Bizim fəlsəfəmiz budur".



Bu sözləri Azərbaycan Respublikası energetika nazirinin müavini, COP29 Azərbaycan üzrə baş icraçı direktor Elnur Soltanov jurnalistlərə açıqlamasında deyib.

*"Azərbaycanda bizim fəlsəfəmiz budur ki, həm neft, həm də qaz sahəsində qlobal enerji inqilablarının ön sırasında olaq. Azərbaycan əlbəttə ki, yaşıl enerji inqilabında ön sıralarda yer alacaq. COP29-a ev sahibliyinin Azərbaycana verilməsi bizim yaşıl enerji sahəsində atdığımız addımlara verilən mükafatdır. Eyni zamanda, Azərbaycanın fəaliyyətini bütün dünyaya göstərmək üçün bir fürsətdir"*, - deyə o bildirib.

# "Yaşıl enerjinin inkişafı gündəlikdə duran prioritet məsələlərdəndir"

"Bakı Yay Enerji Məktəbi əla fürsətlər ilə iştirakçıların Azərbaycanın enerji siyasətini və qlobal enerjiyə verdiyi faydaları daha yaxşı anlaması üçün çox önəmli rol oynayır". Bu sözləri energetika naziri Pərviz Şahbazov 18-ci Bakı Yay Enerji Məktəbinin açılış mərasimində deyib. O bildirib ki, Azərbaycan daim enerji resurslarının etibarlı tədarükçüsü olub: *"Əsasən də neft və qaz ölkənin iqtisadi inkişafını təmin etmək baxımından çox mühüm rol oynayıb. Neft və qaz yalnız Azərbaycanın və qonşu ölkələrin enerji təhlükəsizliyi baxımından deyil, həmçinin daha geniş bölgələrin enerji ilə təmin olunması üçün də mühüm rol oynayıb"*.

Nazir qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli siyasəti sayəsində Azərbaycan sosial-iqtisadi strategiya qəbul edib və yaşıl enerjinin inkişafı gündəlikdə duran prioritet məsələlər sırasına yer alıb.

# Q.Counz: "Azərbaycanı yaşıl enerji sahəsində də parlaq gələcək gözləyir"

"Azərbaycan bütün regionun və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır".

Bu sözləri BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz 18-ci Bakı Yay Enerji Məktəbinin açılış mərasimində deyib.



"Azərbaycanın neft qaz sahəsinin inkişafı tarixinə nəzər salaraq deyə bilərəm ki, Azərbaycanı yaşıl enerji sahəsində də parlaq gələcək gözləyir. Biz 30 ildir Azərbaycanla tərəfdaşlıq edirik və inanıram ki, bu, davamlı olacaq",- deyə o qeyd edib.

# "Azərbaycan yaşıl enerjiyə keçid prosesində bir çox maraqlı tərəfləri əməkdaşlığa cəlb edib"

"Azərbaycan yaşıl enerjiyə keçid prosesində bir çox maraqlı tərəfləri əməkdaşlığa cəlb edib. Maraqlı tərəflərlə gücləri birləşdirilməsi bu istiqamətdə daha böyük nailiyyətlərə çatmağa imkan yarada bilər".

Bu sözləri 18-ci Bakı Yay Enerji Məktəbinin açılış mərasimində SOCAR-ın prezidenti Rövşən Nəcəf deyib.



O bildirib ki, Azərbaycan bir çox ölkələrə enerji təchizatının həcmini artırmaqla yanaşı, onların enerji təhlükəsizliyini də təmin edir.

*"Yay Enerji Məktəbinin təşkili bu kimi məsələlərin müzakirəsi baxımından çox uyğun platformadır"*,- deyə R.Nəcəf vurğulayıb.

# Maaş və pensiyalar artırılacaq?

***"Dövlət sektorunda əməkhaqqı dövlət büdcəsi hesabına maliyyələşdirilir, artırılır. Özəl sektorda təbii ki, əməkhaqqı artımları birbaşa özəl sahibkarların verdikləri qərarlardır".***

Bu barədə Trend-in suallarını cavablandırarkən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov deyib.

O qeyd edib ki, artıq son məlumatlara görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən minimum əməkhaqqının artırılması ilə bağlı noyabrın 1-dək təkliflərin hazırlanması həyata keçiriləcək.

"Noyabrın 1-də təqdim olunduqdan sonra məhz bu istiqamətdə addımların atılacağı gözlənir. Ona görə də artıq uyğun dövlət qurumu minimum əməkhaqqı ilə bağlı təkliflərin hazırlanacağını və təqdim olunacağını bəyan edib. Bu isə ondan xəbər verir ki, təkliflər hazırlanıb təqdim olunduqdan sonra minimum əməkhaqqının artırılması reallaşa bilər.

Pensiyalar daha çox indeksləşdirilmə və eləcə də 2022-ci ildən Prezident İlham Əliyevin tapşırığı ilə pensiyaçılara yardım verilməsi ilə artırılır. İndeksasiya 2025-ci ilin yanvarın 1-dən etibarən təqdim olunacaq. Bu zaman 2024-cü ildə orta aylıq əməkhaqqındakı artım faizinə uyğun olaraq pensiyaların indeksləşdirilib artırılacağı gözlənilir. Yaxın vaxtlar üçün təxmini orta indeksləşdirilmə faizini məyənləşdirmək mümkün olacaq. Çünki 2024-cü ilin ilk yarımilinin sosial yekunları növbəti ildə yanvarın 1-i üçün indeksləşdirilmə fazini ilk gün olaraq proqnozlaşdırmaq imkanı verəcək.

Müavinətlərin artırılması ilə bağlı təkliflər də Milli Məclisin iclaslarında təqdim olunub. Bu da birbaşa fiskal və maliyyə yükünə bağlıdır", - deyə V.Bayramov bildirib.

# Mobil telefon radiasiyasının həyat və sağlamlıq üzərindəki təsiri və SAR dəyəri

*(əvvəli ötən sayımızda)*

Tədqiqatçılar bu halın xərçəngə səbəb olub-olmadığını müəyyən etmək üçün iki əsas tədqiqat növündən istifadə edirlər:

***1. Laboratoriyada aparılan tədqiqatlar (laboratoriya heyvanları və ya hüceyrələrdən istifadə etməklə);***

***2. İnsan qruplarını araşdırmaqla.***

Əksər hallarda heç bir tədqiqat növü insanlarda xərçəngə səbəb olub-olmadığını göstərmək üçün kifayət qədər sübut təqdim etmir, buna görə də tədqiqatçılar, adətən həm laboratoriya, həm də insan üzərində olan tədqiqatlara baxırlar.



***Bəhruz Əliyev, İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti***

**Radiotezlik dalğalarının laboratoriya tədqiqatları**

Mobil telefonlar tərəfindən yayılan dalğaların birbaşa DNT-yə zərər vermək və ya bədən toxumalarını qızdırmaq üçün kifayət qədər enerjisi yoxdur. Bu səbəbdən cib telefonlarının xərçəngə səbəb ola biləcəyi barədə məlumatlar aydın deyil. Bəzi tədqiqatlar radiotezlik radiasiyasına məruz qalan laboratoriya heyvanlarında müəyyən növ şişlərin mümkün artım nisbətlərini tapa bildi, lakin ümumilikdə bu tip tədqiqatların nəticələri barədə indiyə qədər dəqiq cavab verilməmişdir.

2018-ci ildə ABŞ NTP (National Toxicology Program - Milli Toksikologiya Proqramı) və İtaliyanın Ramazzini İnstitutu tərəfindən nəşr olunan böyük tədqiqatlara görə, laboratoriya siçovullarınının bütün bədənlərini bir neçə saat ərzində radiotezlik dalğalarına məruz qoydular. Siçovullar doğumdan başlayaraq, günlük kifayət qədər çox və müəyyən vaxt intervalında radiotezliyə məruz qoyulub. Hər iki tədqiqat nəticələrinə görə erkək siçovullarda bədxassəli ürək şişlərinin riskinin artdığı müşahidə edilib, lakin dişi siçovullarda bu hal olmayıb. NTP tədqiqatı həmçinin, beyində və adrenal bezlərdə müəyyən növ şişlərin riskinin artdığını qeyd edib.

ICNIRP (International Commission on Non-Ionizing Radiation Protection - Qeyri-İonlaşdırıcı Radiasiyadan Mühafizə üzrə Beynəlxalq Komissiya) tərəfindən bu iki tədqiqat 2019-cu ildə nəzərdən keçirildi və müəyyən edildi ki, tədqiqatların məhdudiyyətləri radiotezlik enerjisinin xərçəngə səbəb olması ilə bağlı nəticələr çıxarmağa imkan vermir.

Düşünmək olar ki, yenə də bu tədqiqatların nəticələri mobil telefonlardan gələn radiotezlik dalğalarının insan sağlamlığına hansısa formada təsir göstərə biləcəyini istisna etmir.

Bir çox tədqiqatlar aparılıb. Bəzi tədqiqatlar aşağıdakı kimidir.

**İNTERFON tədqiqatı**

On üç ölkəni əhatə edən İNTERFON tədqiqatı bu günə qədər edilən ən böyük tədqiqatdır. Beyin şişini inkişaf etdirən 5000-dən çox insan və şişi olmayan oxşar qrup insanlar arasında mobil telefondan istifadə araşdırıldı. Tədqiqat beyin şişi riski ilə zənglərin tezliyi, uzun danışıq vaxtı və ya 10 və daha çox il ərzində mobil telefon istifadəsi arasında heç bir əlaqə tapmadı. Kiçik tapıntılar vardı. Ancaq bu tapıntını şərh etmək çətin idi, çünki tədqiqatda bəzi insanlar ağlasığmaz dərəcədə çox mobil telefon istifadə etdiyini bildirdilər. Tədqiqatçılar araşdırmada olan nöqsanların qəti nəticə çıxarmağa mane olduğunu və daha çox araşdırmağa ehtiyac olduğunu qeyd ediblər.

İNTERFON tədqiqatında akustik neyroması olan 1000-dən çox insan şişi olmayan 2000-dən çox insanla müqayisə edildi. Mobil telefon istifadəsi ilə akustik neyromalar arasında ümumi əlaqə yox idi. Mobil telefonlardan ən çox istifadə edən insanların 10%-də riskin artması ehtimalı yenidən ortaya çıxdı, lakin bu tapıntını şərh etmək çətin idi, çünki bəzi insanlar daha çox mobil telefon istifadə etdiyini bildirdilər.

**Danimarka kohort tədqiqatı**

Danimarkada 1982-1995-ci illər arasında mobil telefonu abunəsi olan bütün insanları (təxminən 400.000 nəfər) beyin şişlərinin mümkün artımını tapmaq üçün abunə olmayanlarla müqayisə edən geniş, uzunmüddətli bir araşdırma aparıldı. Tədqiqata əsasən, 2007-ci ilə qədər insanlar izlənildi. Mobil telefondan 13 ildən çox istifadənin beyin şişi, tüpürcək vəzi şişləri və ya ümumilikdə xərçəng riskinin artması ilə əlaqəsi yox idi.

Lakin bu tədqiqatın bəzi çatışmazlıqları da var idi. İnsanların telefondan nə qədər istifadə etdiyini və ya abunəsi olmayan insanların başqasının telefonundan istifadə edib-etmədiyini ölçmək mümkün olmadı. Tədqiqat zamanı istifadə edilən mobil telefonlar müasir telefonlardan daha yüksək radiotezlik dalğaları yaymağa meyilli olsa da, insanlar da telefonlarından bu gün istifadə etdikləri telefonlara nisbətən az istifadə ediblər.

**Milyon qadın araşdırması**

Böyük Britaniyada 800.000-ə yaxın qadın üzərində aparılan geniş perspektivli araşdırma mobil telefonlardan istifadə ilə bağlı orta hesabla 14 il ərzində beyin şişlərinin inkişaf riskini araşdırdı. Bu araşdırma cib telefonu istifadəsi ilə ümumilikdə beyin şişi riski və ya bir neçə ümumi beyin şişi alt növləri arasında heç bir əlaqə tapmadı. Ancaq yenə də bu tədqiqatın bu gün mobil telefonlardan istifadə edən insanlara nə dərəcədə tətbiq oluna biləcəyi ilə bağlı məhdudiyyətlər var. Məsələn, 2001-ci ildə bu tədqiqatda iştirak edən qadınlardan ilk dəfə mobil telefondan istifadələri barədə soruşduqda, hər 5 istifadəçidən 1-i azı hər həftə 30 dəqiqə və ya daha çox mobil telefonla danışdığını bildirdi.

İndiyə qədər aparılan bütün tədqiqatların məhdudiyyətləri var

Xülasə, bu günə qədər insanlar üzərində aparılan tədqiqatlarda mobil telefondan istifadə ilə şişlərin inkişafı arasında aydın əlaqə tapmayıb. Bununla belə, bu tədqiqatların mobil telefondan istifadənin xərçəng riskinə təsir edib-etməməsi ilə bağlı mübahisələrə son qoymasını çətinləşdirən bəzi mühüm məhdudiyyətlər var.

Birincisi, tədqiqatlar hələ çox uzun müddət insanları izləyə bilməyib. Məlum bir xərçəngə məruz qalmadan sonra şişlərin inkişafı üçün çox vaxt onilliklər lazımdır. Əksər ölkələrdə mobil telefonlardan cəmi 20 ildir ki, geniş şəkildə istifadə olunduğu üçün gələcəkdə sağlamlığa mümkün təsirləri istisna etmək mümkün deyil.

İkincisi, mobil telefondan istifadə daim dəyişir. İnsanlar mobil telefonlardan hətta 10 il əvvəl olduğundan daha çox istifadə edirlər və telefonların özləri də keçmişdə istifadə edilənlərdən çox fərqlidir.

Üçüncüsü, indiyə qədər nəşr olunan tədqiqatların əksəriyyəti uşaqlara deyil, böyüklərə yönəlmişdir. Mobil telefondan istifadə indi hətta kiçik uşaqlar arasında da geniş yayılıb. Mümkündür ki, sağlamlıq təsirləri varsa, onlar uşaqlarda daha aydın görünə bilər, çünki bədənləri radiotezlik enerjisinə daha həssas ola bilər. Digər narahatlıq odur ki, uşaqların ömür boyu cib telefonlarından gələn radiotezlik dalğalarına məruz qalmaları yaşlı olarkən mobil telefonlardan istifadə etməyə başlayan böyüklərdən daha çox olacaq.

Nəhayət, əksər tədqiqatlarda mobil telefon istifadəsinin ölçülməsi əksik olmuşdur. Bu məhdudiyyətləri nəzərə alaraq, mobil telefona məruz qalma riskinin, xüsusən də uşaqların istifadəsi və uzunmüddətli istifadəsi ilə bağlı öyrənilməsini davam etdirmək vacibdir.

**(davamı gələn sayımızda)**

# Mərkəzi Gömrük Hospitalında tələbələrin istehsalat təcrübəsi başa çatıb

5 iyul 2024-cü il tarixində Mərkəzi Gömrük Hospitalında 1 nömrəli Bakı Tibb Kollecinin və 2 nömrəli Bakı Baza Tibb Kollecinin tələbələrinin istehsalat təcrübəsinin başa çatması ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Mərkəzi Gömrük Hospitalının rəisi, Baş həkim, tibb xidməti polkovnik-leytenantı Bəxtiyar Musayev, rəis müavinləri Nabil Seyidov, Nahidə Mahmudova, Baş tibb bacısı Gülyaz Fərəcova və məzun tələbələr iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan Mərkəzi Gömrük Hospitalının rəisi, Baş həkim Bəxtiyar Musayev rotasiya proqramı ilə təhkim olunduqları şöbələrdə fəaliyyət göstərən tələbələrə öz təşəkkürünü bildirib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Tədbirin sonunda tələbələr onlara göstərilən diqqət və qayğıya görə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədova, Mərkəzi Gömrük Hospitalının Baş həkimi Bəxtiyar Musayevə, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi Tədris Mərkəzinin rəisi Rəşad Mahmudova və tibb heyətinə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, 1 nömrəli Bakı Tibb Kollecinin 15 və 2 nömrəli Bakı Baza Tibb Kollecinin 14 tələbəsi rotasiya proqramı ilə Mərkəzi Gömrük Hospitalının müxtəlif şöbələrində təcrübə keçmiş, proqram çərçivəsində qanalma proseduru, sarğıların icra olunması, venadaxili, əzələdaxili inyeksiyalar, EKQ çəkilməsi, SPR otağının iş prinsipi, cərrahi əməliyyatlarda tibb bacılarının işi ilə yaxından tanış olub və praktiki fəaliyyətlər icra ediblər.

Həmçinin, istehsalat təcrübəsi müddətində tələbələr Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi Tədris Mərkəzi tərəfindən təşkil olunmuş tibbi təlim kurslarında, elmi-təcrübi konfranslarda və seminarlarda fəal iştirak ediblər.

Xatırladaq ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 1 nömrəli Bakı Tibb Kolleci və 2 nömrəli Bakı Baza Tibb Kolleci arasında imzalanmış əməkdaşlıq memorandumuna əsasən tələbələr Mərkəzi Gömrük Hospitalında istehsalat təcrübəsi keçiblər.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# "Bakcell" Wi-Fi üzərindən zəng xidmətini Azərbaycana gətirdi

"Bakcell" şirkəti Azərbaycanda ilk dəfə olaraq Wi-Fi üzərindən zəng xidmətini - VoWiFi (Voice over Wi-Fi) texnologiyasını istifadəyə verib. Yeni xidmət ölkə xaricində olan abunəçilərə smartfonda Wi-Fi şəbəkəsi aktiv olduğu halda dünyanın istənilən yerinə Azərbaycandakı tarif ilə zəng etmək imkanı verəcək.

Bunun üçün ölkə xaricində olarkən rouminq və VoLTE / VoWiFi xidmətlərinin aktiv olması kifayətdir.

VoWiFi xidmətinin üstünlükləri nələrdir?

• ***VoWiFi xidməti ilə abunəçi xaricdə olarkən daxil olan rouminq zənglərini tamamilə pulsuz qəbul edə biləcək;***

• ***Şəbəkənin olmadığı yerlərdə belə, WiFi üzərindən mobil nömrə ilə yüksək keyfiyyətli zəng etmək mümkün olacaq;***




• ***Xaricdə olarkən VoWiFi xidməti ilə edilən zənglərə Azərbaycandakı tarif tətbiq edilir.***

Bu isə beynəlxalq zənglərdə əlavə xərclərə qənaət etməyə kömək edəcək.

Smartfonun VoWiFi texnologiyasını dəstəkləməsini *309# kodunu yığmaqla yoxlamaq olar. Ətraflı məlumat bakcell.com/vowifi səhifəsində yerləşdirilib.

Qeyd edək ki, VoWiFi texnologiyası "Bakcell"in yeni brend strategiyasına daxil olan innovativ məhsullardan biridir. Şirkət qarşıdakı dövrdə bir sıra yeni məhsulları abunəçilərin ixtiyarına verməyi planlaşdırır.




**Azəri Light markalı neftin bir barelinin**

**3 – 10 iyul tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

# "Microsoft" Çində çalışan işçilərinə "Android"i qadağan edib

"Microsoft" şirkəti sentyabr ayından etibarən Çindəki işçilərinə iş üçün "Android" telefonlarından istifadə etməyi qadağan edəcək.

Şirkət bütün işçilərinə "iPhone 15" hədiyyə edəcək.

"Apple"ın tətbiq mağazası Çində mövcud olmadığı üçün "iPhone"a keçən bütün işçilər "Microsoft Authenticator" şifr meneceri və "Identity Pass" proqramından istifadə edəcəklər.




"Microsoft"un Çində "Android"dən "iOS"a keçmək qərarı, kibertəhlükəsizlik standartlarını əsaslı bərpa etmək üçün 2023-cü ilin noyabrında təsis etdiyi təhlükəsiz gələcək təşəbbüsünün bir hissəsidir.

Qeyd edək ki, bu siyasətə baxmayaraq, rus hakerləri bu ilin əvvəlində "Microsoft"un korporativ e-poçt sistemlərini ələ keçiriblər. Kibertəhlükəsizlik firması fevral ayında "Azure bulud" serverində "Microsoft"un daxili məlumatlarına şifr olmadan daxil ola bilib.

## ALLAH RƏHMƏT ELƏSİN

Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun əməkdaşları
İnstitutun elmi işçisi Mətanət Cəfərovaya həyat yoldaşı
**HACI ƏLİŞİRİN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**